# Sözün sənət adlı dəyəri

## Əli İldırımoğlu yaradıcılığına daha bir baxış

### JURNALİSTİKANI GÖYLƏRƏ QALDIRAN ƏLİ İLDIRIMOĞLU



**Həyat öz rəngarəngliyi ilə o zaman diqqəti çəkir ki, onun hər anı, hər günü yaddaşa köçür. Həm rəssam fırçasıyla, həm yazar qələmiylə, həm də notların səsiylə bu proses gerçəkləşəndə bütün yaşananlar insana stimul verir, ümid bağışlayır, onu daha böyük uğurlara, daha gözəl sabahlara kökləyir. Bu mənada qələmiylə bir ömür yolunu sözə çevirən və o sözü də ən yüksək mərtəbəyə qaldıran, bir az da obrazlı desəm, həyatın özü edən tək-tək insanlar var... yazarlar, yaradanlar var. Onların sırasında Azərbaycan jurnalistikasının ən ünlü, sayılıb-seçilən, möhürünü jurnalistikaya vuran bir ağır taxtalı İNSAN həmişə seçilib. Bu İNSAN, bu KİŞİ Əli İldırımoğludur!Onu hər kəs öncə sözünə, qələminə imzasına görə tanıyıb, sözünü, qələmini, imzasını sevib və sonra da sözün, qələmin, imzanın sahibini bütöv bir İNSAN kimi görübdü. Əli müəllim Sovet jurnalistikasının şinelindən çıxsa da, o, böyük jurnalistikaya nüfuz etməyi bacaraıb. Özünü mətbuat tariximizdə haqlı yer sahibi kimi təsdiqləyib. Ona görə də onun yaradıcılığı həm jurnalist, həm publisist, həm də yazıçı qələmi hər zaman diqqət çəkməklə paralel olaraq məktəb kimi araşdırılıb. Ondan yazmağı, sözü yüksəyə qaldırmağın yollarını dünən də, öyrəniblər, bu gün də öyrənirlər, sabah da öyrənəcəklər!**

**Noyabrın 17-si Əli müəllimin doğum günüdür. Mən bu kiçik yazımla hər zaman izlədiyim, oxuyub bir vəsait kimi mənimsədiyim jurnalistin, publisistin, yazıçının doğum gününü təbrik edirəm. Düşünürəm və inanıram ki, yuxularımdan əsir yuxularımız çıxmayan Əli müəllim haqq etdiyi ustad adının əzəmətini sözün və qələmin ən böyük hədiyyəsi kimi rahatlıqla yaşayır! Ona bu ömürdə ürəyinin istədiyi gözəllikləri Tanrıdan diləyirəm. Doğum gününüz mübarək olsun, Əli müəllim! Var olun, Ustad!**

**Əbülfət MƏDƏTOĞLU**

**Ziyalılıq cəmiyyətin gələcəyə ümidlə baxmasına yardımçı olan nəcib anlayışdır. Bu kateqoriya ilə yazıçılıq birləşəndə ortaya mükəmməl bir varlıq çıxır. Kitab oxumaq vərdişlərinin öləzidiyi bir zamanda yazmağın nə qədər ağır olduğunu anlamaq o qədər də çətin deyil. Ədəbiyyatın sosial funksiyasının böyük məsuliyyət daşıdığı, yazmağı oxucu ilə ən gözəl rabitə sayan hər kəsə məlumdur. İnsanı çevrəsi ilə birlikdə dəyişdirib, onun bədii zövqünün kamilləşdirməsi, şüurunun çox yüksək mərtəbələrə qədər ucalda bilməsi ədəbiyyatın möcüzəvi qüvvəsidir.**

*Yazıçının bir əsəri*

oxucuya təqdim etməsi dəvətdir. Oxumağa, anlamağa, əsərdə baş verən hadisələrin axarına düşüb onunla yaşamağa, əsərin anlatdığı dərdi öz dərdi bilib kədərlənməyə, sevincinə şərik olmağa dəvətdir bu.

**Mübaliğəsiz qeyd etmək mümkündür ki, bu missiyanı ən gözəl bacaran yazıçılarımızdan biri də Əli İldırımoğludur.**

Söz sənətlə qucaqlaşanda insanı təsir altına alan ən dinamik funksiya, estetik zövq meydana çıxmışdır, demək. Görkəmli yazıçı Əli İldırımoğlunun əsərlərini oxuduqca ilk növbədə göz önündə möhtəşəm bir şəxsiyyət canlanır. Bu əzəmətin təntənəsini yazıçının bəyan etdiyi bir ifadəsi ilə tapmaq mümkündür: "Kamal sahibləri qarşısındakıları da dərrakəli bilib onlarla ədəbli davranırlar". Yazar öz oxucusunu çox dərin ağıl sahibi kimi qiymətləndirəndə təkcə əsərini oxunaqlı etmir, eyni zamanda, ədəbiyyatın hər şeydən öncə ədəb mücəssəməsi olduğunu nümayiş etdirmiş olur.

Böyük yazıçı, publisist və filosof Lev Tolstoy, "xoşbəxt olmaq istəyirsinizsə, gerçək həyatın cismini deyil, ruhda olduğuna inanmalısınız" deyir. Əli İldırımoğlunun əsərlərinin ruhuna bələd olanlar özünü o yazıların içində tapır. Oxucu dünyası Əli İldırımoğlunun əsərlərindəki yazıçı dünyası ilə birləşir.

*Əli İldırımoğlunun yazdıqlarını*

**bu qədər oxunaqlı edən yazıçının Sözə verdiyi dəyər, oxucuları ilə səmimi davranmasıdır. Yazıçının əsərlərinin ana xətti özünün bağlı olduğu ocağın dəyərini hər zaman uca tutmasıdır. Görkəmli yazıçımız özünü bir də bu şəkildə ifadə edir:**

"Bütün yaranmışlar kimi, mənim də heç kimə bənzəməyən öz dünyam var.

Qaranquş kimi uçub, gözdən itən dünyam. Ağlım kəsəndə mömin babamın gündə neçə dəfə sumağı gəbənin üstündə dayanaraq dönə-dönə əlini göyə qaldırıb Tanrının dərgahına üz tutduğuna, dizini yerə qoyub, qəddini əyib, alnını qarşısındakı möhürə vurduğuna baxıb avazla dediyi sözləri dinləyirdim.

Kəndimizi əhatə edən dağların, qayaların əzəmətini, çalın-çarpaz cığırlar düşən geniş düzlərin seyrinə dalırdım. Çayların gur səsini, çeşmələrin xəfif pıçıltısını, rəngbərəng quşların nəğməsini dinləyirdim".

**Əli İldırımoğlu yaradıcılığına diqqət edərkən insanın kainatdan ayrı olmadığı hikmətinə bir daha inanırsan. Başqa sözlə, inanırsan ki, kainat elə insanın özündədir. İmadəddin Nəsimi yazırdı ki, "Hər nə yerdə, göydə var Adəmdə var. Hər nə ayda, ildə var Adəmdə var".**

Kainatda dəyişikliklər olduğu kimi, insanda da olur. Yəni insanın da qasırğası, tufanı, leysanı var.

İnsanın davranış və hərəkətləri başqalarına rahatlıq və problemlər yarada bilər. Torpaqdan cücərən bitki yağışla, qulluqla boy atar, insanın söylədiyi bir söz başqasını zirvəyə qaldırar, ya da dünyadan bezdirər.

Kainatda var olan insan, başqa şəkildə özündə bir kainat daşıya bilər.

Yazıçının hər əsəri də bu kainatdan bir parçadır. Əli İldırımoğlunun əsərlərinin gücü, inandırıcılığı onun həyatdan gəlməsi, yazarın yaşadıqlarının ustalıqla qələmə alınmasındadır. Yazıçı bir baxımdan ictimai sifarişlər üzrə də yaşayır.

Çünki yalnız yaşamaq insanı yazıçı edə bilmir. Cəmiyyətdə baş verənlərin ustalıqla müşahidə edilməsi, kamil şəkildə qələmə alınması, obrazları həyatın içindən seçmək bacarığı mükəmməl əsərlər qoyur ortaya.

*Yazıçı əsərləri üzərindən oxucu ilə ünsiyyət qurur*

**Bu ünsiyyət və istifadə imkanları olan dil vasitəsilə həqiqəti oxucuya çatdırır. Məqsəd oxucuya orijinal bir mesaj təqdim etməkdir. Əsərlər yazıçının verdiyi mesajla yaşayar və onu canlı edər. Hər yeni əsər oxumaq oxucunu yenidən yaradır. Əli İldırımoğlu əsərləri ilə oxucunu həyatda baş verən gerçəklərə inandırır. Çünki yalanın yer tapa bilmədiyi yeganə ünvan sənət dünyasıdır.**

Diqqətli və sənətdən anlayan hər bir oxucu bilir ki, əsərləri uydurma naxışla bəzəmək onları reallıqdan uzaqlaşdırır. Bir zamanlar oxuduqlarımın içərisində bir ifadə diqqətimi çəkmişdi: "Hər əsrin öz həqiqəti olur". Lakin bütün dövrlər üçün bir gerçək hər zaman öz anlamını saxlayır - Dürüstlük. Əli İldırımoğlunun yazıçı olaraq ən böyük uğuru da məhz oxucuları ilə dürüst davranmasındadır. Yazıçı əsərlərinin süjetini praktik tələblərə paralel olaraq proseslər zəncirində yenidən qurur və oxucunu bu prosesin bir parçası olmağa, sözün gözəl mənasında, məcbur edir.

Yazıçının əsərlərini oxuduqca isə baş verən hadisələr oxucunu o qədər cəlb edir ki, özü də hiss etmədən bu aləmin təsirinə düşür. Elə bil bu ömrü sən yaşamısan, orada cərəyan edənlər sənin öz taleyində baş verib. Əsərlərin təsirindən bir qədər uzaqlaşanda başa düşürsən ki, çox-çox əvvəl yaşananlar müasir oxucuya ona görə bu qədər yaxın görünür ki, bu əsərlər zamanın belə hüdudlarını aşan bədii gerçəkliyə söykənib. Onları oxuduqca mənə elə gəlirdi ki, yazıçı şəxsən mənim istək və arzularımı, fikir və duyğularımı romanda əks elətdirib. Bəli, bu, yazıçı sənətkarlığının mühüm cəhətlərindən sayılan yüksək istedad meyarıdır. Bu duyğu oxucunu oxuduğu hər bir əsərin sonuna qədər təqib edir. Bir təəssüf hissi isə səni sonda izləyəcək. Bu da sənlə əsər arasında olan ünsiyyətin sona çatmasına görədir. Lakin Əli İldırımoğlunun yaradıcılığı üçün nikbinlik verən bir məqam var. O da yazıçının məhsuldar işləməsindədir. Oxucu əmindir ki, yazıçı yeni əsərləri ilə onu bir az da ümidləndirəcək.

*Yazıçının daha bir uğuru*

**əsərlərin mövzusunun həyatın reallıqlarından süzülüb gəlməsindədir. Əli İldırımoğlu yaradıcılığının əsas leytmotivi mənəvi dəyərlərin əsərlərdə daha qabarıq şəkildə əks olunmasındadır. "Mənim rəncbər atam" romanında zəhmətkeş, mərd Azərbaycan kişisinin insanlara örnək olacaq həyat fəlsəfəsi bütün zamanlar üçün aktualdır.**

"Aqibət" romanında yazıçı milli mentalitetimizə, adət-ənənələrimizə bir daha güzgü tutub, onları yaddaşlardan silinməyə imkan verməmək üçün sənətkarlıqla bədii nümunə yaradıb.

Mənəvi dəyərlərimiz bizi ayaqda tutan, cəmiyyəti güclü edən, birləşdirən, çətin zamanlarda dəstək aldığımız, toplumu bir araya gətirən dəyərlərdir.

Əli İldırımoğlu bu dəyərləri əsərlərinin ana xəttinə çevirməklə cəmiyyəti bu dəyərlərdən ayrı düşməməsi üçün çalışır. Məncə, bir yazıçının öz xalqına bağlı olmağın ən gözəl nümunələrindən biri də budur.

Gözəl sənət səviyyəsinə və yaradıcılıq qabiliyyətinə sahib olan insan davranışını və daxili hisslərini nəzarət altında saxlamağı bacarır, onları nizamlaya bilir. Bu bacarığı yazıçının əsərlərinin funksional gücündən də sezmək mümkündür. Yazıçının kamil olması mükəmməl əsərlərin ortaya çıxmasına səbəb olur. Əli İldırımoğlunun əsərləri bir cəhətdən də insan şəxsiyyətinin hər şeydən üstün olmasının fəlsəfəsini aşılayır.

Bədii əsər yaradan yazıçının bir məqsədi də oxucuya azad tənqid etmək bacarığı aşılamaqdır. Ən yaxşı hadisələrlə neqativ məqamlar arasında incə cizgilər yarada bilən müəllif bu hüdudların arasındakı fərqləri meydana çıxarmağı oxucunun öz öhdəsinə buraxır.

Ədəbi nümunələri yaratmağı peşə seçmiş insan quru, bayağı məlumatlarla məşğul olmur. Həyatda baş verən hadisələri ədəbi bacarıqlar işığında cilalayır, əsərlərdə klassik iqlim yaradır. Bu klassik iqlim, eyni zamanda, müasirlik kontekstində aktuallaşır. Yazıçının bəzi əsərlərində baş verən hadisələr tarix axımında bizdən bir qədər uzaq olsa da, priyomların insanın ali dəyər qazanmasına yardımçı olması baxımından aktualdır.

*Keçmiş ənənələrin*

günümüzə və gələcəyə daşınması üçün Əli İldırımoğlu yaradıcılığı cəmiyyətə böyük yardımçı ola bilər. Çünki yazıçı xalqımızın adət-ənənələrinə bağlı olduğunu bu əsərlərlə bir daha ortaya qoyur. Mənəvi dəyərlərin göstərişlərinə əməl etmək cəmiyyəti hər zaman güclü edir. Keçmiş və müasirlik dilemmasında labirintlərdə ilişib qalmamaq üçün ən gözəl vasitə cəmiyyətin mənəvi dəyərlərə bağlı olmasındadır. Görkəmli yazıçımızın əsərləri də cəmiyyətə bu ali dəyərlərə bağlı olmağın qiymətini ədəbi nümunələrlə aşılayır. Yazıçı əsərlərinə göstərməyə çalışır ki, ədəbiyyatda həqiqət, yaxud həqiqi məna təkcə müəllif tərəfindən ifadə edilənlər deyil, eyni zamanda, oxucunun yaratdığı parametrlərdir.

**Əli İldırımoğlunun yaradıcılığı çoxşaxəlidir. Müəllif roman, povest, hekayə, oçerk və felyetonlarında eyni dərəcədə güclüdür. Yazıçı əsərlərində insanları cəmiyyətin bütün sahələrinə, əksər təbəqələrinə apara bilir. Bu əsərlər oxucunu hər şeydən xəbərdar olmağı çox incə həssaslıqla öyrədə bilir. Əli İldırımoğlunun yaradıcılığı ilə tanış olmaq insanı səssizliklərin əlindən alır, əsərlərin sonuna qədər izləməyə vadar edir. Yazıçı oxucuya əsərlərinin hər anını sevdirə bilir.**

**Rəsul Mirhəşimli**